# İnsan Hüquqları Haqqında Avropa Konvensiyasında Təsbit Olunmuş Şəxsi Və Ailə Həyatına Hörmət Hüququnun Müdafiəsi

**Əlizadə Firavan Süleyman qızı**
*Hüquq fakültəsi I kurs*
*Bakı Dövlət Universiteti*

Açar sözlər: insan hüquqları, qanunvericilik, konvensiya, beynəlxalq müqavilələr, qanunverici orqan, qanunvericilik, məhkəmə, qeyri-hökumət təşkilatı, beynəlxalq öhdəliklər.

Xülasə:

Bu məqalədə Avropa konvensiyasında şəxsi və ailə həyatına hörmət hüququ ilə bağlıdır (1 iyun 2010-cu il. 14 saylı protokol). Məqalədə Avropa konvesiyasının mahiyyəti, İnsan hüquqları üzrə konvesiyanın şəxsi və ailə həyatına hörmət hüququnun təmin edilməsində rolu və müdafiə edilməsi sahəsində digər dövlət orqanları ilə qarşılıqlı fəaliyyəti barədə məlumat verilir.

Ключевые слова: права человека, законодательство, конституция, международное право, законодательный орган, законодательство, суд, неправительственная организация, международные обязательства.

Резюме:

В этой статье рассматривается право на уважение личной и семейной жизни в Европейской конвенции (Протокол № 14 от 1 июня 2010 года). В статье рассматривается суть Европейской конституции, роль Конференции по правам человека в обеспечении права на уважение частной и семейной жизни и взаимодействие с другими государственными органами в области обороны.

Keywords: human rights, legislation, constitution, international law, legislative body, legislation, court, non-governmental organization, international obligations.

Summary:

This article examines the right to respect for private and family life in the European Convention (Protocol No. 14 of June 1, 2010). The article examines the essence of the European Constitution, the role of the Conference on Human Rights in ensuring the right to respect for private and family life and interaction with other state bodies in the field of defense.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Dünya Birliyinin tam hüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən etmişdir (2).

Azərbaycan Respublikasının 2001-ci ilin yanvar ayının 25-də Avropa Şurasına daxil olması, daha sonra «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasını ratifikasiya etməsi demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azadlıqların təmininə sadiqliyin ifadəsidir.

Son illər Respublikamızın universal və regional xarakterli beynəlxalq təşkilatlara daxil olması və çoxsaylı beynəlxalq müqavilələrə

qoşulması ilə səciyyələnir. Həmin müqavilələrin mühüm bir hissəsi insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir. Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələri özünün qanunvericilik sisteminə daxil etməklə beynəlxalq öhdəliklərini yerinə yetirmək yolunu tutmuşdur. Beynəlxalq müqavilələr dövlətlər arasındakı beynəlxalq münasibətlərin tənzimlənməsinin, dövlətlərarası əməkdaşlığın inkişafının əsas vasitəsi olmaqla milli qanunvericiliyin tərkib hissəsinə çevrilməkdədir.

Beynəlxalq hüququn səmərəliliyi, beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi və beynəlxalq öhdəliklərə əməl olunması dövlət daxilində həyata keçirilən təşkilati və hüquqi tədbirlərdən asılıdır.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bağlanmış müqavilələrdə dövlətlərin üzərinə götürdüyü öhdəliklər iştirakçı dövlətlərə deyil, onların yurisdiksiyası altında olan insanlara ünvanlanmaqla, ayrı-ayrı fərdlərin hüquqlarının müdafiəsinə yönəlmişdir. Respublikamızda pacta sunt servanda (müqavilələr icra olunmalıdır) pirinsipinə müvafiq olaraq beynəlxalq öhdəliklərin yerinə yetirilməsi prosesi davam etməkdədir. İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə görülən tədbirlərin bir hissəsini də məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi, məhkəmə sisteminin müasirləşdirilməsinə xidmət edir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı da məhz insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin təmininə, məhkəmə sisteminin müasirləşdirilməsinə, məhkəmə hakimiyyətinin möhkəmlənməsinə yönəlmişdir (5).

Fərmanda Azərbaycan Respublikasının Ali Məhkəməsinə və digər yuxarı instansiya məhkəmələrinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə edilmişdir.

Avropada mövcud olan insan hüquqlarının müdafiəsi mexanizminin əsasını «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» 1950-ci il tarixli Konvensiya təşkil edir. Bu sənədin insan hüquqlarının qorunmasına dair beynəlxalq standartların bərqərar olunması istiqamətində müstəsna rolu olmuşdur. Konvensiyanı hüquqi sənəd kimi bir neçə aspektdən qiymətləndirmək olar:

Birincisi, Konvensiyanın əsasında səmərəli nəzarət mexanizmi fəaliyyət göstərir. Bu mexanizmlərə əsaslanan iştirakçı-dövlətlər, Konvensiyaya və onun əsasında formalaşan presedent hüququna söykənərək bir tərəfdən, milli qanunvericiliyi, digər tərəfdən isə dövlət hüquq təsisatlarının fəaliyyətini təkmilləşdirmək imkanı əldə edir.

İkincisi, nəzərə almaq lazımdır ki, Konvensiyanın milli hüquq instirutlarına təsiri daimi xarakter daşıyır və ümumavropa inteqrasiya prosesində özünü biruzə verir.

Vətəndaş cəmiyyətinin struktur elementləri sırasında şəxsi və ailə həyatına hörmət hüququ əsas yerlərdən birini tutur. Hansı ki, hüquqi dövlətdə də şəxsi və ailə həyatı heç bir halda məhdudlaşdırıla və ya aradan qaldırıla bilməz.

Hər birimizin hüququ "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya"nın 8-ci maddəsi və Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi ilə qorunur. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyatı qorumaq üçün və ya digər şəxslərin hü-quq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə hakimiyyət orqanları tərə-findən müdaxiləyə yol verilmir (3).

Konvensiyanın 8-ci maddəsində hər kəsin "öz şəxsi" və "ailə" həyatının olduğu qeyd edilir. Avropa Məhkəməsi "şəxsi həyat"ı geniş termin olaraq qəbul edir və onun hər hansı anlayışla tam əhatə etmək mümkün olmadığını qeyd edir. Lakin "şəxsi həyat" anlayışının fərdin mənəvi və fiziki toxunulmazlığının qorunduğunu, fərdin kənar şəxslərin diqqətindən uzaq özəl həyat sür-mək hüququna malik olduğunu özündə əks etdirir və bu anlayış həm də fərd üçün elə bir mühiti təmin edir ki, həmin mühitdə fərd sərbəst inkişaf edə və öz şəxsi

imkanlarını reallaşdıra bilər.

Ümumiyyətlə, şəxsi həyat anlayışı, insanların gündəlik tələbatlarını təmin etmək imkan-larına sahib olması və onların məhdudlaşdırılmamasını, fiziki və virtual olan şəxsi münasibətlərə sahib olmasını, heç kimin hətta ailə üzvlərinin belə bilməsini istəmədiyi sirrlərə sahib olmasını, ayrıca tənzimlənməsinə baxmayaraq hətta hansı dini seçməsini və s. özündə əks etdirir. “Şəxsi həyat” çox geniş anlayışdır, bu səbəbdən fərdin mənəvi və fiziki toxunulmazlığını aradan qaldı-ran, sərbəst inkişafına mane olan müdaxilərlə üzləşdikdə bu anlayışın daha yaxşı anlaya bilərik. “Ailə həyatı” anlayışı “şəxsi həyat” anlayışı kimi geniş mənalı deyil . Bu anlayış hər birimizin ailə həyatına hörmət, fərdlərin bir ailə kimi münasibətlərini hansı şəkildə və necə qurmalarını, öv-ladlarını necə tərbiyə etmələrini, ailədaxili münasibətlərin hansı şəkildə qurulmasını, ailədaxili sirlərini gizli saxlamalarını qanunla qorunur və bütün qeyd edilənlər qanuna zidd olmamalıdır.

Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinə əsasən hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir. Milli təhlükəsizlik, ictimai asayiş və ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətin qarşısını almaq üçün, sağlamlı-ğı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir (2).

Şəxsi və ailə həyatının sirri olan məlumatlar, belə məlumatları əks etdirən sənədlər, vi-deo və foto çəkiliş materialları, səs yazılar təşkil edir. Şəxsi və ailə həyatının sirri olan məlumat-ların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkiliş materiallarının, səs yazıları-nın yayılması; Şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sə-nədlərin, video və foto çəkiliş materiallarının, səs yazılarının satılması qanuna ziddir.

Şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkiliş materiallarının, səs yazılarının başqasına verilməsi; Şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkiliş materialla-rının, səs yazılarının qanunsuz toplanması.

Qeyd etdiyimiz kimi, şəxsi və ailə həyatı Azərbaycan Konstitusiyasında da qorunur. Konstitusiyanın 32-ci maddəsində göstərilir ki, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqın-da məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısın(1).

“Mənzilinə” və “yazışma sirrinə” hörmət hüququ ayrıca anlayış olaraq müəyyən edilib. “Mənzil” və “yazışma sirri” ayrı ayrılıqda Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunur. Konvensiyada qeyd edilən “mənzil” hüququ Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsi ilə, “Mənzil toxunulmazlığı hüququ” adı altında qorunur. Bu maddə insanların mənzil to-xunulmazlığına malik olduğunu bildirir. Heç kəs məhkəmə qərarı olmadan mənzildə yaşayanların iradəsi ziddinə mənzilinə daxil ola bilməz, araşdırma apara bilməz, şəxsi həyatına müdaxilə edə bilməz, onun rahatlığını poza bilməz.Mənzil bir mülkiyyətdir və insanların mülkiyyət hüququ qanunla qorunur.

“Yazışma sirri” dedikdə insanların yazdıqları məktubların, yazışmaların ictimai şəkildə nümayiş etdirilməsi, nəşr edilməsi qanunla qadağan edilir və həmin hüququn həyata keçirilməsinə dövlət təminat verir . Yazışmanın sahibi olan şəxsin razılığı olmadan şəxsi yazışmalarını, telefon danışıqlarını və s. nəşr etmək, ictimaiyyətə açıqlamaq yalnız qanunla nəzərdə tutulan hallarda, ya-zışma və telefon danışıqları sahibinin razılığı alındıqdan sonra mümkündür. Konvensiyanın digər maddələri ilə tənzimlənən hüquqlar kimi bu hüquq da ictimai maraqlar naminə məhdudlaşdırla bi-lər. Konstitusiyanın və Konvensiyanın sözü gedən hüququ tənzimləyən maddələrinə nəzərə saldıq-da məhdudiyyətlər yalnız qanun çərçivəsində, ictimai maraqlar naminə, cinayət işinin istintaqı za-manı həqiqəti üzə çıxarmaq

üçün məhkəmənin qərarı ilə tətbiq edilə və sözü gedən hüquqa müda-xilələr edilə bilər (4).

İnsan hüquqları sahəsindəki beynəlxalq öhdəliklər, əsas etibarilə, müqavilə mənşəlidir. Və həmin müqavilənin üstünlüyü ondadır ki, o, dövlətlərin konkret insan hüquqlarının müdafiəsi ilə bağlı öhdəliklərini dəqiq müəyyən edir və ən əsası, bu öhdəliklərin yerinə yetirilməsini təmin et-məli olan xüsusi mexanizm və prosedurlar nəzərdə tutur.

Hazırda insan hüquqları sahəsində 70-dən artıq beynəlxalq müqavilə mövcuddur. Bu baxımdan da insan hüquqları sahəsindəki mövcud beynəlxalq müqavilələri dörd kateqoriyaya böl-mək olar:

1) Ümumi müqavilələr. Bu müqavilələrdə, demək olar ki, bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunur.

2) Xüsusi müqavilələr. Bu müqavilələr kokret insan hüquqlarının müdafiəsinə yönəlmiş-dir. Xüsusi müqavilələr də həmçinin universal və regional səviyyədə bağlanır.

3) Ayrı-ayrı qrupların müdafiəsinə yönəlmiş müqavilələr. Cəmiyyətin ayrı-ayrı təbəqələrinin hüquqlarını qorumaq məqsədi güdən bu müqavilələrə misal olaraq aşağıdakıları göstərmək olar: Qadınların siyasi hüquqları haqqında 1952-ci il Konvensiyası; Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası; Bütün miqrantişlərinin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Beynəlxalq Konvensiyası; Miqrant işlərinin hüquqi statusu haqqında 1977-ci il Avropa Konvensiyası; Milli azadlıqların müdafiəsinə dair 1995-ci il Çərçivə Konvensiyası; Müstəqil ölkələrdə köklü və tayfa xalqlarına dair 1989-cu il 169 saylı BƏT Konvensiyası və s.

4) Ayrı-seçkilik məsələlərinə aid olan müqavilələr. Bu müqavilələr irqi və ya cinsi əsasla-ra görə, təhsil, işədüzəlmə və s. sahələrdə ayrı-seçkiliyin qarşısını almaq məqsədi daşıyır.

1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, sonrakı dövrlərdə isə “Mülki və Siyasi hüquqlar haqqında” və “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” 1966-cı il tarixli Beynəlxalq Paktları qəbul edib. Bundan əla-və 1976-cı ildə “Mülki və siyasi hüquqlar haqqında” Pakta dair Birinci Fakültativ Protokol, 1989-cu ildə isə Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokolu qəbul olunub. Hə-min fundamental sənədlər İnsan hüquqları haqqında Beynəlxalq Bill adlanaraq bu sahədə beynəlxalq standartların əsasını təşkil etdi. Ümumdünya Bəyannaməsinin məqsəd və məramları, həmçi-nin Avropa Şurası tərəfindən qəbul olunmuş İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada (1950-ci il), Avropa Mədəniyyət Konvensiyasında (1954-cü il), Terroriz-min qarşısının alınması haqqında Konvensiyada (1977-ci il), Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasında (1995-ci il), Avropa Sosial Xartiyasında (1996-cı il) və ATƏT səviyyə-sində imzalanmış 1975-ci il Helsinki yekun Aktında, 1990-cı il Yeni Avropa üçün Paris Xartiya-sında, digər beynəlxalq sənədlərdə özünün gələcək inkişafını tapıb”.

1995-ci ildə ulu öndər Heydər Əliyevin müəllifi olduğu və insan hüquqlarının və azadlıqla-rının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyamızın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zə-min yaradıb: “2002-ci və 2009-cu illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilmə-sinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəldi. Dövlətimizin ali məqsədinə nail olun-masında, müvafiq hüquqi mexanizmlərin yaradılmasında, o cümlədən mükəmməl qanunvericilik bazasının formalaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fevralın 22-də imzaladığı “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı xüsusi əhəmiyyətə malikdir”.

Yeri gəlmişkən, həmin dövrdə ulu öndərimiz tərəfindən təsdiq edilən “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” bu sahədə ilk fundamental sənəd hesab olunur:

1. Qanunvericilik və institusional islahatların aparılmasına

2. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatın yaradılmasına

3. Hüquq mühafizə fəaliyyətinin təkmilləşdirilməsinə

4. Qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin

genişlənməsinə və digər istiqamətlər üzrə inkişafa təkan verdi(3).

Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müs-təviyə keçməsinə, universal və regional səviyyədə əməkdaşlıq strategiyasının qurulmasına, dövlət-lə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edir : "Yeni ça-ğırışların və cəmiyyətimizin inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından Milli Fəaliyyət Planı ölkəmizin siyasi sahədə milli maraqlarından biri olan insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, alınan müxtəlif qruplarının, o cüm-lədən ən kövrək nümayəndələrinin hüquqlarının qorunmasının gücləndirilməsində yeni mərhələnin başlanğıcı oldu.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvesiyasının 8- ci maddəsinə əsasən, hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir. "Elşolts Almaniyaya qarşı" işi üzrə Avropa İnsan hüquqları Məhkəməsinin 13 iyul 2000- ci il tarixli qərarında qeyd edilir ki, Konvensiyanın 8-ci maddəsi tələb edir ki, dövlət hakimiyyəti orqanları uşağın maraqları ilə valideyinlərin arasında ədalətli tarazlığa riayət etsinlər, həmin maraqlar onların xarakterindən və ciddiliyindən asılı olaraq valideyinlərin maraqlarından üstün tutula bilər.

Maddə 8. Şəxsi və ailə həyatına hörmət hüququ:

1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.
2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı, yaxud mənəviyyatı mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimiyyəti orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir. 8-ci maddə ilə nəzərdə tutulan hüququn məqsədi fərdləri dövlət orqanlarının qanunsuz hərəkətlərindən qorumaqdır. Fərdin şəxsi müstəqilliyinin 4 aspektini qorumaqla bu məqsədə nail olunur. 8-ci maddə qeyd şərtlə tətbiq edilən maddədir və 1-ci bənddə maddənin təmin edildiyi hüquqlar, 2-ci bənddə isə bu hüquqlarin məhdudlaşdırılması ilə bağlı dövlətlərin istinad edə biləcəyi ümumi şərlər və konkret əsaslar əksini tapır. Konvensiyanın özü daima inkişaf edən bir təsisat olduğu üçün 8-ci maddə də xarakterinə görə dəyişikliklərə ən çox açıq olan maddədir. Bu maddənin tətbiq dairəsi digər maddələrin şamil olunmadığı məsələləri əhatə edir. Avropa Məhkəməsinin presedent hüququnun təhlili onu göstərir ki, konvensiya ilə qorunan hüququn pozulduğunu sübut etmək və bu hüququn 8-ci maddəsinin təbiq dairəsinə düşdüyünə məhkəməni inandırmaq ərizəçinin vəzifəsidir. Şikayətin 8-ci maddə ilə nəzərdə tutulan hüququn tətbiq dairəsinə düşdüyünü müyyən etmək üçün, əvvəlcə müəyyən etmək lazımdır ki bu pozuntu 4 aspektdən hansi birinin dairəsinə və ya hansi hallar ilə hansı aspektlərin pozuntusuna aiddir.

1995-ci il noyabrın 12-də qəbul edilən Konstitusiya ölkəmizdə əsas insan hüquq və azadlıq-larının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun başlanğıcını qoydu. Sənədin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı üçüncü fəsli insan hüquqlarının geniş dairə-sini əhatə edən 48 maddəni özündə əks etdirir (5).

Azərbaycan Respublikası Prezidenti tərəfindən 1998-ci il 22 fevral tarixində "İnsan və və-təndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalandı və onun 1998-ci il 18 iyun tarixli sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiqləndi. Qeyd olunan dövlət proqramı əsasında 2002-ci ildə Azərbaycan Respublika-sının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) institutu təsis edildi.

Ekspertlər bildirilər ki, Azərbaycan Respublikasında ictimai həyatın bir çox sahələrində dərin islahatlar həyata keçirildi ki, nəticədə də ölkənin demokratikləşdirilməsi sahəsində aparılan islahatların sırasında Azərbaycanın hüquqi sisteminin Avropa İnsan hüquqları Konvensiyası və di-gər vacib beynəlxalq sənədlərdə təsbit edilmiş beynəlxalq standartların tələblərinə uyğunlaşdırıl-ması istiqamətində atılan addımlar mühüm yer tutdu. Bundan başqa Azərbaycan Respublikasının Mülki, Mülki-Prosessual, Ailə, Əmək, Cinayət, Cinayət-Prosessual, Cəzaların İcra edilməsi haq-qında, Gömrük və Vergi Məcəllələri, Yığıncaq azadlığı, Kütləvi informasiya vasitələri, Qeyri-hö-kumət təşkilatları (ictimai birlik və fondlar) və Vəkillik haqqında

mühüm əhəmiyyətə malik olan qanunları qəbul edildi.

Ekspertlər qeyd edirlər ki, insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində beynəlxalq təşkilatlar qarşısında Azərbaycan tərəfindən götürülmüş geniş miqyaslı və spesifik öhdəliklər öl-kədə yeni bir mühit yaratdı və Hökumətin gündəliyinə yeni vəzifələr daxil etdi.

Ümumiyyətlə götürdükdə isə, müstəqillik qazandıqdan sonra demokratik institutların ya-radılması və möhkəmləndirilməsi, insan hüquqları dəyərlərinin müdafiəsi və təşviqi daxili və xari-ci siyasətin əsas komponentlərinə çevrilərək cəmiyyətin şüuruna təsir göstərmiş, vətəndaşlar üçün yeni imkanlar və dövlət qurumları üçün isə ciddi öhdəliklər yaratdı. İnsan hüquqlarının təmin edil-məsi sahəsində mühüm addımlardan biri də Azərbaycan Respublikasında insan hüquqlarının mü-dafiəsi üzrə Milli Fəaliyyət Planının qəbul edilməsi olub. Xarici İşlər Nazirliyi də daxil olmaqla bir sıra dövlət qurumlarının təklifləri əsasında hazırlanan Milli Fəaliyyət Planı Azərbaycan Res-publikasının Prezidenti İlham Əliyevin 2006-cı il 28 dekabr tarixli 1889 saylı Sərəncamı ilə təsdiq edilib.

2007-2008-ci illər ərzində Azərbaycanda İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının İcrası və İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin tə-min edilməsi, eyni zamanda vətəndaş cəmiyyətinin inkişafı sahəsində bir sıra tədbirlər görülüb. Xarici İşlər Nazirliyinin saytında yer alan məlumata görə, 27 dekabr 2011-ci il tarixində Azərbay-can Respublikası Prezidenti tərəfindən Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edildi. Konseptual və miqyaslı xarakter daşıyan həmin Proqramda Azərbaycanın insan hüquqları sahəsində beynəlxalq müqavilə-lərə qoşulması prosesinin davam etdirilməsi, yeni qanunvericilik aktlarının qəbul edilməsi, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin insan hüquqları sahəsində ixti-saslaşan qurumlar, Qaçqınlar üzrə Ali Komissarlıq, YUNESKO, YUNİSEF, Dünya Bankı, habelə Avropa Şurası, Avropa İttifaqı, ATƏT və digər regional təşkilatlar ilə birgə əməkdaşlıq proqramla-rının həyata keçirilməsi, habelə korrupsiya ilə mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, əhaliyə göstərilən elektron xidmətlərin inkişaf etdirilməsi sahəsində fəaliyyətin vətəndaş cəmiyyə-ti ilə sıx əməkdaşlıqda davam etdirilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, ölkəmiz insan hüquqları sahəsində əsas beynəlxalq sənədlərə qoşul-maqla yanaşı, onlardan irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşki-latlarla sıx əməkdaşlıq edir. Bu təşkilatların sırasında BMT-nin insan hüquqlarının təşviqi və mü-dafiəsi sahəsində fəaliyyət göstərən müxtəlif qurumları, ATƏT , Avropa Şurası və Avropa İttifaqı mühüm yer tutur.

Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət yetirilir. Azərbaycan Res-publikası Prezidentinin Qeyri-hökumət təşkilatlarına (QHT) Dövlət Dəstəyi haqda 2007-ci il, 27 iyul tarixli və QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması haqda 2007-ci il, 13 dekabr tarixli Fərmanları bunu göstərir (2).

Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi hər kəsin şəxsi toxunulmazlıq hüququnu təsbit edir. Həmin maddəyə əsasən, hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Hər kəsin yazışına, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər (3).

«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 4-cü maddəsi, şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum edilməsinə qoyulan məhdudiyyətləri müəyyən edir. Belə ki, Konstitusiya Qanununun 4.1-ci maddəsinə əsasən, aşağıdakı hallardan başqa və aşağıdakılardan fərqli qaydada heç kəs tutula, həbsə alına və ya başqa formada azadlıqdan məhrum edilə bilməz:

– şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi; – şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə

tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədilə qanuni tutulması və ya həbs edilməsi;

– şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi;

– yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar əsasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması;

– yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması;

– şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya tətbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi.

"Bu məhkəmə işindəkinə bənzər hallar" sözlərini istifadə etməklə Məhkəmə 10-cu Maddəyə uyğun olaraq informasiya almaq hüququnun mümkünlüyünü istisna etmir. Lakin bu məhkəmə işləri çox saylı fərqli amilləri özündə birləşdirir, buna görə də onların hamısını nəzərə aldıqda 10-cu Maddə ilə təmin edilən məlumatlara çıxış hüququnun rədd edilməsi bu cür iddiaya böyük maneə yaradır. Lakin Məhkəmə bu işlərinin hamısında məlumat almaq hüququnu tanımağı rədd etmədi. Onların bəzilərində məhkəmə sözügedən məlumatlara çıxış hüququnun rədd edilməsinin Konvensiyanın 8-ci Maddəsi ilə təmin edilən şəxsi və ya ailə həyatının toxunulmazlığı hüququnun pozulması olduğunu aşkarlamışdır. Bu məhkmə işlərinin çoxunda Məhkəmə şəxsi və ailə həyatına hörmət hüququna heç bir müdaxilənin olmamasına, lakin 8-ci Maddənin bu cür hüquqlara hörməti təmin etmək üçün Dövlətlərin üzərinə pozitiv öhdəlik tətbiq etməsi ilə bağlı qərar vermişdir.

8-ci Maddənin məqsədinin əsasən fərdi dövlət orqanlarının əsassız müdaxiləsindən qorumaq olmasına baxmayaraq, o, Dövləti yalnız bu cür müdaxilədən çəkindirmir: bu mənfi vəziyyətlə yanaşı olaraq, şəxsi və ailə həyatı üçün səmərəli hörmətə aid pozitiv öhdəliklər ola bilər.

Digərlərinin hüquqları: şəxsi həyatın toxunulmazlığı İndiyə qədər sadalanan digər maraqlardan fərqli olaraq şəxsi həyatın toxunulmazlığı Avropa Konvensiyasının 8-ci Maddəsində insan hüququ kimi birbaşa qoruma əldə edir: "Hər kəs şəxsi və ailə həyatına, mənzil və yazışma sirrinə hörmət edilməsi hüququna sahibdir". Bu hüququn üzərindəki məhdudiyyətlər ifadə azadlığının üzərindəki məhdudiyyətlərlə eyni sətirləri nəzərdə tutur. Buna baxmayaraq, məhkəmənin qarşısına əsas etibarilə şəxsi həyatın toxunulmazlığı hüququna əsaslanan, ifadə azadlığına müdaxilə hallarına aid çox az iş çıxarılmışdır. Bunun səbəblərindən biri şəxsi həyatla bağlı işlərin çoxuna aydın şəkildə şəxsi həyatla sıx əlaqəsi olan təhqir və ya diffamasiya işi kimi baxılmasıdır.

Konvensiyanın 8-ci Maddəsi ilə verilən təminat ilk növbədə hər bir fərdin digər insanlarla münasibətində kənar müdaxilə olmadan şəxsiyyətinin inkişaf etdirilməsini təmin etməlidir. Hətta ictimai kontekstdə şəxsin başqaları ilə qarşılıqlı ünsiyyət zonası var ki, bu da şəxsi həyatın toxunulmazlığının əhatə dairəsinə daxil ola bilər. Şəklin yayımlanması şəxsin hətta ictimai xadim olduğu hallarda onun şəxsi həyatına müdaxilə edə bilər. Məhkəmə, həmçinin, ifadə azadlığı və şəxsi həyatın toxunulmazlığı hüquqları arasındakı mümkün iyerarxiya, işlərin Məhkəmənin qarşısına gətirilə biləcəyi müxtəlif yollar, onların diskresion səlahiyyətinə necə təsir edə biləcəyi və bu hüquqların hər biri üçün müvafiq qoruma məsələsini bəyan etmişdir:

Sözü gedən məhkəmə işi kimi şəxsi həyatın toxunulmazlığı hüququnun ifadə azadlığı hüququ ilə balanslaşdırılmasını tələb edən işlərdə Məhkəmə hesab edir ki, müraciətin nəticəsi nəzəriyyədə onun Məhkəməyə Konvensiyasının 8-ci Maddəsinə əsasən məqalənin obyekti olan şəxs tərəfindən və ya 10-cu Maddəyə əsasən naşir tərəfindən verilməsindən asılı olaraq fərqlənməməlidir. Əslində prinsip etibarilə bu hüquqlar bərabər hörmətə layiqdir. Müvafiq olaraq nəzəri baxımdan diskresion səlahiyyət hər iki işdə eyni olmalıdır.

Yekun.Dünyada baç verən proseslərə nəzər saldıqda görə bilərik ki, qanunlar qəbul olunmasına baxmayaraq hələ də bir çox ölkələrdə şəxsi və ailə həyatına toxunulmazlıq problemləri özünü büruzə verməkdədir. Ən çox bu

çətinliklərələ qarşılaşan şərq ölkələridir. Yaxın və uzaq şərqdə rəsmi şəkildə hüquqpozmalar ləğv olunsada qadınların insanların hüquqları rəsmi və qeyri-rəsmi şəkildə pozulur. Bunun üçün avropa konvensiyası ölkələrdə treniqlər və maariflərndirici tədbirlər keçirməyi xususi önəm verirlər və buna görə hüquqları pozulan insanların hüquqpozan şəxsə qarşı xususi cəzalar tətbiqinə başanmışdır. Buda ölkələrdə hüquqbərabərliyinin gələcək illərdə daha spesifik səciyyə daşıyacağından xəbər verir.

Azərbaycanda da qəbul olunan qanunlar konustitusiya və qanunvericiliyə əsasən hər kəsin şəxsi və ailə həyatına hörmət hüququ tətbiq edilmişdir. Bu qanunları pozan şəxslər məhkəmə qarşısında cavab verməlidirlər.



İstinad

1.«Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu 24 dekabr 2002-ci il.s 15

2.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq yayın evi, 2016, s.33

3. Avropa insan hüquqları konvensiyası. 2015.s 18-25

4.Fərhad Mehdiyev, Nəzəriyyə və Təcrübədə İnsan Hüquqları, Bakı 2009, s.32-37.

5.http://www.ajb.az/site/konvensiya.pdf